*"Keçən ilin aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsi işğaldan azad edildi. O ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Minlərlə hektar torpaq işğaldan azad edildi. On minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. O torpaqlarda təmizlik işləri aparılır və yaxın gələcəkdə məcburi köçkünlər o ərazilərə qayıdacaqlar".*

***2017-ci ilin yanvarında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında Prezident İlham Əliyevin çıxışından.***

# Aprel döyüşləri Qarabağdakı Böyük Zəfərimizin başlanğıcı oldu



Azərbaycan Ordusu nələrə qadir olduğunu artıq nəzəri və texniki baxımdan deyil, praktiki şəkildə də dostlarımıza və bədxahlarımıza hələ Aprel döyüşlərində nümayiş etdirmişdi: "Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir" - deyən Prezident, Ali Baş Komandan əsgərlərimizin 2016-cı ilin yazında qazandığı uğurları qəhrəmanlıq adlandıraraq bildirmişdir ki, uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradır, uydurmalar irəli sürür, yenilməz ordusu olduğunu sübut etməyə çalışırdı. Aprel döyüşləri reallığı, kimin ordusunun yenilməz olduğunu açıb göstərdi: "Ermənistan öz acı məğlubiyyətini etiraf etmək istəməsə də, məcburdur ki, etiraf etsin. Məhz Aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla bir çox yüksək vəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, Aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm də qəhrəmanlıq göstərmişdir".

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi hesab edən, bu məsələnin həlli istiqamətində ciddi irəliləyişin olmadığını, Ermənistanın sülh istəmədiyini, danışıqları boykot etdiyini hər dəfə vurğulayan dövlət başçısı bu vəziyyətlə barışmayacağımızı da müxtəlif kürsülərdən bəyan edirdi. Məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəyini deyən Prezident bu faktı da diqqətə çatdırırdı ki, ədalət ən böyük meyardır, beynəlxalq hüququn norma və prinsipləri bütün dövlətlərə eyni şəkildə tətbiq olunmalıdır.

Aprel döyüşləri bir həqiqəti də təsdiqlədi: diplomatik mübarizədə qələbə qazanan Azərbaycanın hərb yolunu seçdiyi təqdirdə də qələbəsi şəksizdir. Bu döyüşlər, həmçinin bir neçə mühüm nəticəni də şərtləndirdi: əvvəla, beynəlxalq aləm bir daha əmin oldu ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, bütün region üçün ciddi təhlükə mənbəyidir. ATƏT-in Minsk qrupu həmsədrlərinin fəallaşması, beynəlxalq ictimai rəydə münaqişənin tezliklə həlli ilə bağlı tələblərin səslənməsi bunu bir daha sübut edir. Bir daha göründü ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmaq, Ermənistanın təxribatlarına dözmək niyyətində deyil və düşmənə layiqli cavab vermək əzmindədir. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, habelə Azərbaycan əsgerinin vətənpərvər və qəhrəman obrazını, Azərbaycan xalqının həmrəyliyini, birliyini, hakimiyyətlə xalq arasında vəhdəti nümayiş etdirdi. Ermənistanın əldə etdiyi "uğurun" müvəqqəti xarakter daşıdığı təsdiqləndi və gec-tez ədalətin bərpa olunacağına əminlik artdı. Ermənistanın təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mif dağıdıldı, bu kimi iddiaların heç bir əsası olmadığı bir daha açıqlandı. Hadisələrdən dərhal sonra Ermənistan ordusunun rəhbərliyində baş vermiş çoxsaylı dəyişikliklər də bunu bir daha təsdiq edir. Ermənistan cəmiyyətində gərginlik artdı, xalqla hakimiyyət arasında uçurum daha da dərinləşdi. Ümumilikdə, Aprel döyüşləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni vəziyyətin yaranmasına və Azərbaycanın böyük üstünlük qazanmasına səbəb oldu.

Aprel döyüşləri Azərbaycan Ordusunun hansı imkanlara malik olduğunu nümayiş etdirdi. Qeyd etdiyimiz kimi, bu döyüşlər ermənilərin öz orduları haqqında apardıqları təbliğatın nə qədər əsassız xülya olduğunu ortaya qoydu. Ermənistan hakimiyyəti belə sərsəm bəyanatı ilə ictimai diqqəti özünə yönəltməyə çalışır, əgər münaqişənin həllində hərb yolu seçilərsə, Azərbaycanın məğlub tərəf olacağı barədə fikir formalaşdırırdı. Təbii ki, onun belə sayıqlamasına səbəb Azərbaycanın hərbi büdcəsinin günbəgün artması, ordu quruculuğu istiqamətində davamlı addımların atılması idi. Bundan narahatlıq keçirən düşmənin başqa çıxış yolu qalmırdı. Hər dəfə beynəlxalq aləmdə belə rəy yaratmağa çalışırdılar ki, guya Azərbaycan tərəfi sülh danışıqlarının həyata keçirilməsində maraqlı deyil. Bu səbəbdən ordu quruculuğuna xüsusi önəm verir. Rəsmi Bakının qarşı tərəfin belə sərsəm bəyanatlarına mesaj bu olurdu ki, ordu quruculuğu suveren hüququmuzdur. Azərbaycanın tam haqqı var ki, işğal altında olan torpaqlarını istənilən yolla azad etsin. Prezident İlham Əliyev deyirdi: "Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, Aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdursa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər Aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik".

2016-cı il aprelin 1-də erməni qoşunları Azərbaycan mövqelərini, eləcə də arxa cəbhədə yerləşən yaşayış məntəqələrini intensiv artilleriya atəşinə məruz qoydular. Dinc əhali arasında tələfat oldu. Azərbaycan Ordusunun əməliyyat üstünlüyünü neytrallaşdırmağa çalışan erməni komandanlığı işğal altındakı Ağdərə şəhəri və Madagiz (indiki Suqovuşan) yaxınlığında yerləşdirilmiş hissələrin köməyi ilə hücuma keçdi. Lakin hücum dəf edildi. Cəbhənin şimal-şərq istiqamətindəki Seysulan kəndi, Talış yüksəkliyi, Horadiz şəhəri yaxınlığındakı strateji yüksəkliklər azad edildi. Aprelin 2-də Azərbaycan Silahlı Qüvvələrinin əks-həmləsilə Lələtəpə yüksəkliyinin azad edilməsi ilə Ermənistan ordusunun kəndə, oradakı mövqelərimizə yaratdığı təhlükə aradan qalxdı, Cocuq Mərcanlıda sakinlərin asayiş içində yaşamasına şərait yarandı. Lələtəpə istiqamətində Ermənistan ordusu 300-dən çox canlı qüvvə, 15-ə yaxın tank, PDM və zirehli döyüş maşını, çoxlu sayda hərbi texnika itirdi. Çox sayda silah və hərbi texnika qənimət götürüldü.

Aprel ayının 3-də və 4-də ermənilərin itirilmiş mövqelərini geri almaq üçün həmlələri nəticəsiz qaldı. Düşmən o itkilərin yaratdığı sindromdan xilas ola bilmədi. Lələtəpə döyüşü 1994-cü ilin yanvar ayında baş vermiş Horadiz əməliyyatından sonra düşmənin eyni istiqamətdə aldığı ən ağır zərbə idi.

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması və sakinlərin oraya qayıtması, əslində, Böyük Qayıdış proqramının başlanğıcı oldu. Aprel döyüşləri işğal altında olan torpaqlarımızın azad ediləcəyi, bütün məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdacaqları günün uzaqda olmaması ilə bağlı inam hissini daha da gücləndirdi...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 5 aprel.- S.7.